

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 108 (23.019)

*8 iyun 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyunun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib.

"Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri barədə dövlətimizin başçısına ətraflı məlumat verilib. Qeyd olunub ki, bu stansiyada işlər təyin edilmiş müddətdən xeyli əvvəl yekunlaşdırılıb. Stansiyanın yerüstü vestibülündə müvafiq təmir, yenidənqurma işləri görülüb. Divarlar müasir tələblərə uyğun yenilənib və ümumi memarlıq üslubuna uyğunlaşdırılıb, vestibülün estetik görkəmi dəyişib.

Dövlətimizin başçısı "Sahil" stansiyasının əsaslı təmir və yenidənqurmaya qədərki vəziyyətini əks etdirən fotostendlə tanış olub. Bildirilib ki, burada söküntü başa çatdıqdan sonra metal konstruksiyalar, platforma boyunca stansiya yolları və yol divarları gücləndirilib, eləcə də tunellərdə axıntıya qarşı tədbirlər görülüb.

"Sahil" stansiyasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olan Prezident İlham Əliyev Bakı Metropoliteninin kollektivinə uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.



## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilmişdir





İyunun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev və Təşkilat Komitəsinin üzvləri Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı görülən işləri əks etdirən sərgiyə baxmışlar.

Sərgidə "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" gümüşdən hazırlanmış loqotipi, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları, "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransının materialları, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "İslamda müdrik kəlamlar", "Naxçıvan türbələri", "Naxçıvan hamamları", "Naxçıvan buxzanaları", "Qədim və müasir Naxçıvan" kitabları, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipinin tanıtım videoçarxı, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri" televiziya filmi, Naxçıvandakı türk-islam mədəniyyəti abidələrinin əks olunduğu suvenirlər, həmçinin üzərində loqo olan xalça, duzdan, muncuqdan, gipsdən, misdən və dəridən hazırlanmış əl işləri, müxtəlif aksesuarlar, eləcə də "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqosunun əks olunduğu yerli məhsullar nümayiş olunurdu.

Sərgiyə baxışdan sonra Təşkilat Komitəsinin iclasında çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı tədbirlərin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Təşkilat Komitəsi yaradılmışdır. Təşkilat Komitəsinin 2016-cı il noyabrın 25-də ilk iclası keçirilmiş, ötən dövrdə isə işçi qrupu səviyyəsində yığıncaqlar olmuşdur. Bu gün isə Təşkilat Komitəsinin ikinci iclası keçirilir. İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı açılış tədbiri keçiriləcəkdir. Bununla bağlı Tədbirlər Planına uyğun olaraq müvafiq hazırlıq işləri görülür.

İclasda Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova görülmüş işlər barədə məlumat verərək qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamına əsasən "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi hazırlanmışdır. Hazırda Naxçıvan şəhərindəki monitorlarda, Naxçıvan Beynəlxalq Hava Limanının və Naxçıvan şəhərinin girişində, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və "Təbriz" otelində loqotip nümayiş olunur. Bundan əlavə, kütləvi informasiya vasitələrində, internet saytlarında və sosial şəbəkələrdə də loqotip tanıdılır. Üzərində loqotip əks olunmuş 100 min ədəd zərf, 100 min ədəd poçt markası, markalardan ibarət 200 ədəd buklet, 500 ədəd döş nişanı hazırlanmışdır. Tədbirlər Planına əsasən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyiroğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin İSESKO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

2017-ci il iyulun 7-də "Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" beynəlxalq konfransı, dekabrın 6-da "Ümummilli lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirilmişdir. Muxtar respublikanın türk-islam mədəniyyəti abidələrinin təbliği məqsədilə çap materiallarının hazırlanması da diqqətdə saxlanılmışdır. "İslamda müdrik kəlamlar", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "Naxçıvan buxzanaları", "Naxçıvan hamamları", "Naxçıvan türbələri" kitabları, "Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə" mövzusunda keçirilmiş beynəlxalq konfransın materialları nəşr olunmuşdur. "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" rəsmi internet səhifəsi, "Naxçıvan: türk-islam mədəniyyəti abidələri", "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan" televiziya filmləri, "Naxçıvan – 2018. İslam mədəniyyəti" videoçarxı, eləcə də "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi əks olunmuş suvenirlər hazırlanmışdır.

Diqqətə çatdırılmışdır ki, 2018-ci il fevralın 21-də ümumtəhsil məktəblərinin şagirdləri üçün Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı kimi" mövzusunda interaktiv dərs keçirilmişdir. Muxtar respublikada türk-islam mədəniyyəti abidələrinin təmir və bərpası da diqqətdə saxlanılır. Hazırda Şərur rayonundakı Yengicə hamamında və Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksində əsaslı bərpa işləri davam etdirilir. Eyni zamanda Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı İSESKO-nun saytına yerləşdirmək üçün "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" loqotipi, Naxçıvanın müasir görüntülərini, təbiətini, tarix-mədəniyyət abidələrini əks etdirən fotoşəkillər seçilərək aidiyyəti üzrə təqdim edilmişdir. Həmçinin muxtar respublikanın mədəniyyət müəssisələrində də "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" devizi altında tədbirlər keçirilmişdir.

İclasda "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" açılış tədbirinin proqramı Təşkilat Komitəsinin üzvlərinə təqdim edilmişdir.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək demişdir ki, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı müəyyənləşdirilən vəzifələrin icrası ötən dövrdə diqqətdə saxlanılmışdır. Azərbaycan Milli Kitabxanasında Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı sərgi açılmış, bütün ölkə kitabxanalarında müvafiq guşələr yaradılmış, mədəniyyət müəssisələrində tədbirlər keçirilmişdir. Eyni zamanda İSESKO-nun saytında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbiri haqqında ingilis, ərəb və fransız dillərində məlumat yerləşdirilmişdir. "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" tədbirinə böyük maraq vardır. Beynəlxalq təşkilatların və İslam ölkələrinin yüksək səviyyəli nümayəndələrinin tədbirdə iştirakı gözlənilir. Qonaqların Bakı şəhərində qarşılanması və Naxçıvan şəhərinə yola salınması ilə bağlı bütün təşkilati işlər görülmüşdür. Muxtar respublikada yaradılan müasir infrastruktur və islami dəyərlərin yaşadılması sahəsində görülən işlər tədbirin yüksək səviyyədə keçirilməsinə imkan verəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirinə hazırlıqla bağlı tapşırıqlar verərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyi Naxçıvanda "İslam filmləri həftəsi"nin keçirilməsi üçün ölkələri və filmləri müəyyənləşdirməli, cari ilin sentyabr ayında İslam dinini olduğu kimi təqdim edən filmlərdən ibarət "İslam filmləri həftəsi" keçirilməlidir. İqtisadiyyat Nazirliyi "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi əks olunmuş suvenirlərin hədiyyələr mağazalarında satışının təşkilini diqqətdə saxlamalıdır. Tədbirlər Planına əsasən 2018-ci ildə "İslam dini və ailə dəyərləri" mövzusunda konfrans, iyun ayının 20-dək "İslam dəyərləri: Ramazan və Qurban bayramları" mövzusunda elmi forum təşkil edilməlidir. Təşkilat Komitəsi Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə bu tədbirlərin keçirilməsini təmin etməli, İslam dinində ailə dəyərlərinin, eləcə də Ramazan və Qurban bayramlarının mahiyyəti elmi şəkildə izah olunmalıdır.

*Ardı 2-ci səhifədə*

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ilə birlikdə açılış tədbirində iştirak edəcək ölkələrin siyahısını müəyyənləşdirməli, açılış tədbiri üçün eyni ölçüdə 2 ədəd Dövlət bayrağı, İSESKO-nun və üzərində "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" loqotipi əks olunmuş bayraqlar hazırlanmalıdır. Açılış tədbirində nümayiş üçün hazırlanmış "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan" filmi ingilis dilinə tərcümə olunmalıdır. Dram Teatrın foyesində "Mənim Naxçıvanım" foto sərgisi təşkil olunmalı, yarım saatlıq konsert proqramı hazırlanmalı, Naxçıvan Biznes Mərkəzində sərgi təşkil olunmalıdır. Rabitə və Yeni Texnologiyalar Nazirliyi açılış tədbirində ərəb və ingilis dillərində sinxron tərcüməni təmin etməlidir. Tədbirin proqramına əsasən iyun ayının 19-20-də qonaqların mədəni-kütləvi tədbirlərdə iştirakı və görməli yerlərlə tanışlığı üçün Nəqliyyat Nazirliyi avtobuslar ayırmalı, Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi avtobuslara ingilis dilini bilən bələdçilər və öz nümayəndələrini müəyyənləşdirməlidir.

Ali Məclisin Sədri demişdir ki, Ekologiya və Təbii Sərvətlər və Mədəniyyət nazirlikləri İSESKO-nun "Yaşıl şəhər strategiyası" ekspertlərinin görüşünün Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında keçirilməsini təmin etməli, Azərbaycan Milli Elmlər Akademiyasının Bioresurslar İnstitutu ilə birlikdə Naxçıvan təbiəti ilə bağlı kitab və fotoşəkillərdən ibarət sərgi açılmalıdır. Tədbir iştirakçılarının qarşılanması və yola salınması ilə bağlı məsələlər Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinə, Mədəniyyət Nazirliyinə və Naxçıvan Beynəlxalq Hava Limanına tapşırılmışdır.

İclasda Təşkilat Komitəsinin üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli çıxış edərək demişdir ki, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi əlamətdar hadisədir. Görülən işlər Naxçıvanı İslam Mədəniyyətinin Paytaxtı kimi Azərbaycan dövlətçiliyinə layiq şəkildə bütün dünyaya təqdim edəcəkdir. Naxçıvan təktanrıçılığın mərkəzidir və qədim diyarda bununla bağlı 3 mühüm abidə vardır. Bu torpaqda böyük mədəniyyət formalaşıb. Naxçıvan abidələrində islami dəyərlər və dünyəvilik vəhdətdə götürülüb. Nəticədə, Naxçıvanda İslam dininə cəhalət və fanatizmdən uzaq yeni bir baxış – elmi və mədəni yanaşma formalaşmışdır. Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi və bununla bağlı görülən işlər İslama münasibətin Naxçıvan modeli, əslində isə ümumdünya miqyasında gerçək İslam modelidir. İsa Həbibbəyli qeyd etmişdir ki, Azərbaycan Milli Elmlər Akademiyasında Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı tədbirlər keçirilmiş, "Naxçıvan xalçaları" və "İslamda müdrik kəlamlar" kitabları ərəb dilinə tərcümə olunmuş, dövri mətbuatda məqalələr dərc olunmuşdur.

Ali Məclisin Sədri Naxçıvanda İslam dininə, onun dəyərlərinə və mahiyyətinə uyğun münasibətin formalaşdığını, Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsinin isə bu qədim diyarın tanıdılması baxımından mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırmış, açılış tədbirinin ölkə və dünya mətbuatında geniş işıqlandırılmasının vacibliyini qeyd etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Təşkilat Komitəsinin üzvləri Qarabağlar Türbə Kompleksində olublar

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin üzvləri iyunun 7-də Qarabağlar Türbə Kompleksində olublar.

Qonaqlara məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il iyulun 4-də Sərəncam imzalamış, bununla bağlı tədqiqat qrupu yaradılmışdır. Sərəncama əsasən Kəngərli rayonunun Qarabağlar kəndindəki türk-islam mədəniyyətinin nadir nümunələrindən olan Qarabağlar Türbə Kompleksində bərpa işləri həyata keçirilib. Əcəmi Naxçıvani memarlıq məktəbinin davamı, memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsi olan dünya əhəmiyyətli abidədə bərpa işləri elmi əsaslarla aparılıb.

Kompleks türbə, xanəgah və qoşa minarəli baştağdan ibarətdir. Bərpa işləri aparılarkən abidənin tarixi görkəmi olduğu kimi qorunub saxlanılıb.

Təşkilat Komitəsinin üzvləri abidə ilə tanışlıqdan sonra xatirə şəkli çəkdiriblər.

**"Şərq qapısı"**

## Məşğulluq tədbirləri davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası istiqamətində işlər cari ilin may ayında da davam etdirilmişdir.*

Görülən işlərin nəticəsidir ki, ötən ay məşğulluq mərkəzləri tərəfindən 207 işaxtaran müxtəlif sahələrdə işlə təmin olunmuşdur ki, onların 46-sı gənc, 47-si qadın, 8-i sağlamlıq imkanları məhdud şəxs, 6-sı isə ünvanlı sosial yardım təyini üçün müraciət edənlərdir. Həmçinin ötən ay 31 nəfər ictimai, 36 nəfər isə mövsümi xarakterli müvəqqəti işlərə göndərilmişdir.

Əhalinin məşğulluğunun təmin edilməsi tədbirləri çərçivəsində uzun müddət ünvanlı dövlət sosial yardımı alan 9 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara, cazaçəkmə müəssisəsindən azad edilmiş 1 şəxsə arı yeşiklərinin hazırlanması, 2 nəfərə isə fərdi xalçaçılıq sahəsi üçün zəruri avadanlıqlar verilmişdir. Həmçinin kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, gözəllik salonu və dərzi sexlərində 5 bərbər-manikürçü və 1 dərzi işlə təmin edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyətli şəxslər üçün brayl əlifbası ilə "Könül işığı" adlı jurnalın növbəti nömrəsi çap olunmuş, audiokitabxana xidmətindən istifadə edən görmə məhdudiyyətli şəxslər tərəfindən 956 əsər dinlənilmişdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Suvarma mövsümü mütəşəkkil keçir

May ayında Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən suvarma mövsümünü mütəşəkkil təşkil etmək və su itkisinin qarşısını almaq məqsədilə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, bu dövrdə 21 kilometr beton və torpaq kanal, 34 kilometr ara arxlar, 5 kilometr kollektor lildən təmizlənmiş, 9 kilometr yeni suvarma boru xətti çəkilmişdir. Bundan başqa, 6 kilometr mövcud içməli su xətti, 4 kilometr suvarma boru xətti, 3 kilometr təzyiqli boru xətti təmir olunmuş, 1 kilometr yeni açıq drenaj kanalı qazılmışdır. May ayında muxtar respublikada 41 min 654 hektar torpaq sahəsi suvarılmışdır.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 410 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, müxtəlif diametrli borularla 6 min 620 metr paylayıcı boru xətti çəkilmiş, 80 hidrant və 60 paylayıcı hovuz quraşdırılmışdır.

"Şəhər Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" layihəsi çərçivəsində də işlər davam etdirilmiş, Babək rayonunun Şəkərabad kəndində müxtəlif diametrli borularla 4 kilometr içməli su xətti, 3 kilometr kanalizasiya xətti çəkilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilir

2018-ci ilin 5 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair bu kimi operativ vergi nəzarətinin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 37 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.



Həyata keçirilən operativ vergi nəzarəti tədbirləri zamanı 4 vergiödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 3 vergiödəyicisi tərəfindən xarici valyuta məbləğinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 14 vergiödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşınması, 2 vergiödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı, 1 şəxsdə "Sadələşdirilmiş vergi üzrə sabit vergi məbləğinin ödənilməsi haqqında qəbz"in və 1 şəxsdə isə malların Vergi Məcəlləsi ilə tənzimlənən qaimə-faktura və ya elektron qaimə-faktura əsasında alınmaması müəyyən edilib.

Əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 12 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

Aparılan operativ vergi nəzarəti işləri zamanı tərtib edilmiş 2840 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin büdcəyə ödənilməsi təmin olunub.

2018-ci ilin müvafiq dövründə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 8 vergiödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb, bu zaman əvvəlki dövriyyələr ilə müqayisədə 11 min 587 manat dövriyyə artımına nail olunub. Bu da hər bir obyekt üzrə orta hesabla ay ərzində 29 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Qeyd olunan dövr ərzində Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əməkhaqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırılmaların aparılması mütəmadi olaraq davam etdirilib. Belə ki, 2018-ci ilin 5 ayı ərzində 124 işəgötürəndə aparılan araşdırmalar zamanı 127 yeni əmək müqaviləsinin bağlanmasına və 412 əmək müqaviləsində isə əməkhaqlarının real əməkhaqları səviyyəsində göstərilməsinə nail olunub.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Avtonəqliyyat xidməti tələblərə uyğun qurulub

*Muxtar respublikada avtonəqliyyat xidməti günün tələbləri səviyyəsində qurulub. Həyata keçirilən tədbirlər, yaradılan müasir infrastruktur, xüsusilə yeni sərnişin avtomobillərinin alınıb gətirilməsi nəqliyyat xidmətinin keyfiyyətini xeyli artırıb. Nəqliyyatın intensiv hərəkətinin təmin olunması may ayında da diqqətdə saxlanılıb.*

Ötən ay şəhərdaxili nəqliyyatın intensiv fəaliyyəti təmin edilmiş, muxtar respublikada sərnişindaşıma hərəkəti göstərən avtobus və mikroavtobuslar texniki müayinədən keçirilmişdir. Həmçinin taksi və avtobus sürücülərinin iştirakı ilə tədbirlər keçirilmiş, görüşlər təşkil edilmişdir. Qrafikə uyğun olaraq həftədə bir dəfə taksi və avtobus sürücülərinin muzeylərdə seminar-məlumatlandırılması işi davam etdirilmişdir. Ötən ay muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin olunmuş, 482 taksi tərəfindən əhaliyə xidmət göstərilmişdir.

May ayında İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı avtobus marşrutu ilə Naxçıvandan Bakıya 736, Bakıdan Naxçıvana isə 842 sərnişin daşınmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti ötən ayı uğurla başa vurub



Muxtar respublikada dəmir yolu nəqliyyatından istifadə sahəsində ardıcıl tədbirlər görülür, müasir dəmir yolu infrastrukturu yaradılır. Yaradılan şəraitin nəticəsidir ki, cari ilin may ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisindəki ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 11 min tondan artıq müxtəlif təyinatlı yük daşınmışdır. Hesabat dövründə Ordubad-Şərur və Şərur-Culfa istiqamətində hərəkət edən yük-sərnişin qatarları vasitəsilə 13 min 891 sərnişin daşınmışdır.

Vaqonlarda və lokomotivlərdə cari təmir işləri aparılmış, baş və stansiya yollarına baxış keçirilmişdir. Xidməti ərazidəki bina, tikili və qurğular, eləcə də istismarda olan lokomotiv və sərnişin vaqonları, məşinmexanizmlər mütəmadi yoxlanılmış, nöqsanlar aradan qaldırılmışdır.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti***

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Naxçıvan xanlarının iqamətgahı – Xan sarayı



***Yaxın Şərqin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan çoxəsrlik tarixə malik tarixi abidələri, xalqımızın böyük qüdrətini və ulu keçmişini parlaq şəkildə əks etdirən nümunələrlə zəngindir. Xan sarayı da belə abidələrdən biridir.***

Bu qədim mədəniyyət incisi Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi kimi fəaliyyətə başlayıb. Həmin mədəniyyət müəssisəsini ziyarət zamanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova ilə həmsöhbət olduq. Öyrəndik ki, əsası 1747-ci ildə Heydərqulu xan tərəfindən qoyulan Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə mühüm yer tutub. 1828-ci il fevral ayının 10-da Rusiya-İran müharibəsinin yekunlarına əsasən imzalanmış Türkmənçay müqaviləsi ilə Şimali Azərbaycanın digər xanlıqları kimi Naxçıvan xanlığının da mövcudluğuna son qoyulub. Həmin il martın 21-də Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək Rusiyanın tərkibinə qatılıb. Nəzakət xanımın sözlərinə görə, həmin hadisədən sonra bu sarayda Kəngərli süvarilərinin komandanlığı yerləşdirilib, 1918-1920-ci illərdə isə Naxçıvan Milli Müdafiə Şurasının qərargahı buraya köçürülüb. Xan sarayı müxtəlif dövrlərdə baxımsız vəziyyətə düşsə də, bu günümüzədək qorunub saxlanılıb, əsaslı şəkildə təmir olunaraq binanın daxili və fasadı milli ornamentlərlə bəzədilib, həyətdə abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb.



Bu iqamətgah Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən 1760-cı illərdə tikdirilib. Şərq memarlığı üslubunda inşa edilmiş abidə XVIII əsrin ortalarından XX əsrin əvvəllərinədək Naxçıvan xanlarının yaşayış evi olmaqla yanaşı, həm də xanlıq dövründə dövlətin siyasi iqamətgahı funksiyasını yerinə yetirib. Naxçıvan-Marağa memarlıq məktəbinə aid olan bu saray üç mərtəbədən ibarətdir və hazırda muzey kimi fəaliyyət göstərir. Bu tarix-mədəniyyət abidəsi şəhərin Qədim Qala məhəlləsində, Möminə xatın türbəsinin yaxınlığında yerləşir. 1998-ci ildə Naxçıvan Dövlət Xalça Muzeyi kimi fəaliyyətə başlayan binada 2010-cu ildən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi yaradılıb. Muzeyin 9 ekspozisiya zalı var. Burada 2000-ə yaxın eksponat yerləşdirilib ki, onlardan 236-sı muzeydə nümayiş etdirilir. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi mövcuddur. Birinci mərtəbədə iş otaqları, fond, təsərrüfat otağı və digər yardımçı sahələr, ikinci mərtəbədə 8, üçüncü mərtəbədə isə 1 sərgi-ekspozisiya salonu fəaliyyət göstərir.

Muzeyin giriş salonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında 2010-cu il 23 oktyabr tarixli Sərəncamının mətni, Naxçıvan xanlığının xəritəsi və 2 ədəd unikal eksponat, orta əsrlərə aid göy kaşıdan olan dekorativ fayans boşqab və dekorativ mis şamdan yer alıb.

Muzeyin ikinci, əsasən, mənbələrin toplandığı salonunda 40 ədəd eksponat şüşə qapaqlı 5 vitrin və 16 divar taxçası vasitəsilə nümayiş etdirilir. Naxçıvan xanlığı haqqında yazılı annotasiya, Kəngərli nəslinin gerbi və Kəngərli süvari dəstəsinin fəxri bayrağının rəngli fotosurətləri, Naxçıvan xanlarının nəsil şəcərəsini və vəkil (sultan) qolunu əks etdirən sxem-tablo, xanlığın müdafiəsində əsas rol oynayan Abbasabad qalasının sxemi və Naxçıvanın Qaraçuq kəndində Kəngərli bəylərinə məxsus mülklərin 1889-cu ildə II Nikolayın möhürü ilə təsdiq edilmiş xəritəsi, həmçinin xan nəslinin məşhur generallarından II Kalbalı xan, Hüseyn xan, Cəmşid xan Naxçıvanskilərin fotoları və onlar haqqında arxiv sənədlərinin surətləri, yazılı məlumatlar, Araz-Türk Cümhuriyyətinin rəhbərlərindən olan Bəhram xan və Cəfərqulu xan Naxçıvanskilərə, eləcə də xan nəslinin digər məşhur hərbçi və dövrün tanınmış şəxslərindən Kərim Sultan, Əşrəf ağa Kəngərli, Xaqan xan, Kamran xan, Rəhim xan Naxçıvanskilərə, Hüseyn xanın oğlu Nikolay Naxçıvanskiyə aid fotomənbələr, yazılı məlumatlar salonda öz əksini tapıb.



Burada həm də Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı mühüm kitablar, o cümlədən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə nəşr olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", tarixçi-alim Musa Quliyevin "Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri", Fuad və Mirabdulla Əliyevlərin "Naxçıvan xanlığı", İlqar Kəngərlinin "Kəngərli elinin soy kitabı", Fərhad Nağdəliyevin "Naxçıvan xanlığı Rusiya imperiyası tərkibində" (rus dilində), məşhur Qafqazşünas alim R.N.İvanovun "Əlahəzrətin general-adyutantı" və "Murad xan haqqında həqiqətlər" elmi-tədqiqat kitabları da nümayiş etdirilir.

Muzeyin üçüncü salonunda yer alan 50 ədəd eksponat isə 8 vitrin və 22 divar taxçası vasitəsilə mühafizə edilir. Salondakı eksponatlar məşhur Kəngərli generallarından olan Ehsan xan, I Kalbalı xan, II Kalbalı xan, İsmayıl xan, tam süvari generalı Hüseyn xan Naxçıvanskilər, general-mayor Cəmşid xan Naxçıvanski ilə əlaqədar yazılı məlumatlar, arxiv sənədləri, nadir fotomənbələrdən ibarətdir. Salonda general Maqsud Əlixanov, Əmirsuvar bəy Kəngərli, Əşrəf ağa Kəngərli, Əkbər xan Naxçıvanski ilə bağlı müxtəlifməzmunlu eksponatlar, həmçinin Kəngərli nəslinin tanınmış qadın nümayəndələrindən Heyran xanım, Xurşid Qacar, Qönçəbəyim, Xanbikə xanım, Zərrintac bəyim haqqında foto və yazılı məlumatlar öz əksini tapıb.

Salonda nümayiş etdirilən mənbələr sırasında Rudolf İvanovun "Sovet İttifaqı adından", "Kalbalı xan Naxçıvanski: dövrü və irsi" elmi-tədqiqat kitabları da xüsusi maraq doğurur.

Muzeyin digər salonlarındakı eksponatlar da diqqətçəkəndir. Xüsusilə aynalı salondan başlayaraq divar taxçalarında nümayiş etdirilən zərgərlik, unikal misgərlik və dekorativ-tətbiqi sənət nümunələri, rəssamlıq əsərləri muzeyə gələnlərdə xoş təəssürat yaradır. Muzeydə Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin, həmçinin Şamil Qazıyevin, Rəfail Qədimovun və başqa rəssamların əsərləri diqqəti cəlb edir.

Nəzakət Əsədova onu da bildirdi ki, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yeni maraqlı eksponatlarla, eləcə də arxiv sənədləri ilə zənginləşdirilməsi diqqət mərkəzində saxlanılır. Xanlığın o dövrdə əlaqədə olduğu dövlətlərin, o cümlədən Rusiya arxivlərindən əldə edilməsi mümkün olan sənədlərin surətləri gətirilərək muzeyin fonduna daxil edilir.

**Gülcamal TAHİROVA**

## Dövlət orqanlarının mətbuat xidməti əməkdaşları attestasiyadan keçiblər

*Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarında mətbuat xidmətlərinin fəaliyyətlərinin təşkili və qarşıda duran vəzifələrlə bağlı 19 may 2018-ci il tarixdə keçirilən tədbirdə verilən müvafiq tapşırıqların icrasının təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın test mərkəzində attestasiyaya cəlb olunmuş dövlət orqanlarının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə məsul əməkdaşlarının test imtahanı keçirilib.*

Test imtahanında iştirakçılara qanunvericilik üzrə 70, dünyagörüşü üzrə 30 sual olmaqla, 100 sual təqdim edilib. Qanunvericilik üzrə suallar Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, "Məlumat azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Dövlət sirri haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası qanunlarını, dünyagörüşü üzrə suallar isə ədəbiyyat, tarix və coğrafiya haqqında ümumi bilikləri əhatə edib.

Test imtahanında uğur qazanmış şəxslər attestasiyanın ikinci mərhələsində iştirak etmək hüququ qazanacaqlar. İkinci mərhələdə esse yazılmaqla iştirakçıların yaradıcılıq qabiliyyətləri qiymətləndiriləcəkdir.

Attestasiyanın test imtahanı mərhələsində 16 nəfər iştirak edib. İmtahan başlanmazdan əvvəl iştirakçılara slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. Sualları cavablandırmaq üçün iştirakçılara 2 saat 30 dəqiqə vaxt ayrılıb. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara cavab kartı və nəticəyə dair arayış təqdim edilib.

Nəticələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet səhifəsində *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Bakının "Ekspo 2025" Ümumdünya Sərgisinə ev sahibliyinə namizəd şəhər olması ilə bağlı təqdimat keçirilib



*Naxçıvan Dövlət Universitetində Bakının Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə ev sahibliyinə namizəd şəhər olması ilə bağlı təqdimat keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov qeyd edib ki, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsi, respublikamızda bu sahədə qazanılmış böyük təcrübə ölkəmizin bu tədbiri də lazımi səviyyədə keçirə biləcəyinə əminlik yaradır.

"Ekspo layihəsi, səhiyyənin gələcəyi" mövzusunda çıxış edən Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin əməkdaşı Məryəm Cəfərzadə layihənin beynəlxalq əhəmiyyətindən danışıb.

"Ekspo 2025" Bakı layihəsi haqqında təqdimatı nümayiş etdirən Məryəm Cəfərzadə hazırda Azərbaycanın Rusiya və Yaponiya ilə ev sahibliyi uğrunda rəqabət apardığını bildirib. Vurğulanıb ki, layihə cəmiyyətin hər bir sahəsinin insan intellektindən faydalanmasına, əldə olunan biliklərin tətbiqinin öyrənilməsinə əlverişli şərait yaradacaq.

"Təhsilin gələcəyi" mövzusunda çıxış edən Azərbaycan Respublikası Təhsil Nazirliyinin sektor müdiri Cəsarət Valehov "İnsan kapitalını inkişaf etdirərək daha yaxşı gələcək quraq" devizi ilə Azərbaycanın ev sahibliyinin irəli sürülməsinin ölkəmizdə insan kapitalına verilən yüksək dəyər kimi qiymətləndirib və 2025-ci ilədək dünyanı dəyişəcək texnoloji trendlərdən danışıb.

"Məşğulluğun gələcəyi" mövzusunda təqdimatla çıxış edən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Rəna Abdullayeva Beynəlxalq Əmək Təşkilatına üzv ölkələrdə milli dialoqların əsas müzakirə mövzuları və dünya əmək bazarında mövcud vəziyyətdən, məşğulluğun gələcək perspektivli istiqamətlərindən danışıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Daşınmaz əmlakın qeydiyyatı davam etdirilir

Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının fəaliyyətinə hərtərəfli şəraitin yaradılması, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi digər sahələrdə olduğu kimi, əmlak və torpaq məsələlərinin həllində də mühüm nəticələrin əldə edilməsinə, vətəndaşlara göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsinə şərait yaradıb. 2018-ci ilin may ayında Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə işlər mütəşəkkilliklə davam etdirilib.

Ötən ay Şərur rayonunun Cəlilkənd, Tənənəm, Xələc, Arbatan və Danyeri, Babək rayonunun Zeynəddin kəndlərində planaalma işləri aparılıb, 1513 daşınmaz əmlak obyekti plana alınıb. Həmçinin Şərur rayonunun Yuxarı Aralıq, Aşağı Aralıq, Muğancıq-Mehrab, Qarxun və Çərçiboğan bələdiyyələrinin sərhəd xəritələrinə dair müvafiq yerquruluşu sənədləri elektron variantda hazırlanıb və torpaqların növləri üzrə uçotu aparılıb. Şahbuz rayonunun Kolanı, Nursu, Sələsüz və Gömür bələdiyyələrinin isə mövcud mülkiyyət növləri üzrə torpaq sahələrinin elektron kadastr xəritələri tərtib edilib.

Muxtar respublikada torpaq sahələrinin təyinatı üzrə istifadə vəziyyəti daim nəzarətdə saxlanılıb, torpaqların qanunsuz istifadəsinin aradan qaldırılması və qanunsuz tikililərin sökülərək torpaqların əvvəlki vəziyyətinə qaytarılması üçün müvafiq tədbirlər görülüb.

May ayında muxtar respublika üzrə 560 daşınmaz əmlak obyekti qeydiyyata alınıb. Hüquqların dövlət qeydiyyatına alınması üçün komitənin fəaliyyət istiqamətləri üzrə daxil olan 37 elektron müraciət icra edilib. Bu dövrdə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 45 daşınmaz əmlak obyektinə ünvan verilib, 93 torpaq sahəsinin planölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb, 13 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilib, 156 əmlakın bazar dəyəri məlumat bankına daxil edilib.

Vətəndaşlara səyyar xidmət də göstərilib, 8 yaşayış məntəqəsində 31 vətəndaşa xidmət edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Əs, ay külək, əs bizlərə*
*Kəklikotlu ətir gətir.*
*Dözəmmirəm istilərə*
*Buludlardan çətir gətir.*
*Kəklikotlu ətir gətir.*

Yurdumuzun nemətləri

# Dağlarımızın şəfa mənbəyi – Naxçıvan kəklikotusu



Bu günlərdə Şərurun dağ kəndlərinə yolu düşən hər kəsi Şərur-Dərələyəz silsiləsinin yaşıl rəngə boyanmış yamaclarının mənzərəsi, gözəlliyi valeh edir. Gözəlliyi göz oxşamaqla bərabər bu dağlardan insanı bir ətir də vurur – küləklərin gətirdiyi kəklikotu ətri. Yaxın günlərdə dağ kəndi Axurada olanda kəklikotu ətri məni bir anlıq keçmişə – Naxçıvandan ayrı yaşadığım günlərə apardı. O günlər ki, həmin vaxtlarda yurdumun ətrini doğma diyarımdan göndərilən kəklikotundan alırdım. Yaşadığım yerlərdə bu bitkidən olsa da, Naxçıvanda bitən kəklikotunun ətrini vermirdi. Sovqat gələn kəklikotudan torpağımızın ətrini, gözəl yurdumuzun təmiz havasını, uca dağlarımızın əzəmətini, meşələrimizin sərinliyini, bulaqlarımızın layla səsini hiss edirdim.

...Yaşlı insanlar deyirlər ki, yeddi evdən birində Naxçıvan kəklikotusu dəmlənəndə hamısına bu çayın ətri yayılır. Axura kəndində qonaq olarkən bu deyimin nə qədər doğru olduğunu gördüm. Həyətdə dəmlənən kəklikotu çayının ətri hər tərəfə yayılmışdı. Elə biz də kəklikotunun ətri ilə gedib çay süfrəsinin qonağı olduq. İxtisasca əczaçı olan ev yiyəsi Tofiq əmi ilə söhbət zamanı dedi:

– Azərbaycan təbiəti müalicəvi ot və dərman bitkiləri ilə zəngindir. Belə bitkilərdən olan kəklikotu faydalı xüsusiyyətləri ilə əsl şəfa mənbəyidir. Onun Azərbaycanda 24, Qafqazda 53, MDB-də 172, dünyada 417 növü var. Naxçıvanda bu növlərin 17-si mövcuddur.

Bu müalicəvi otdan hələ qədimdən xalq təbabətində, əsasən, soyuqdəymə dərmanı kimi istifadə edilib. Tərlədici, bəlğəmgətirici və antiseptik xassəyə malik olduğu üçün laringit, bronxit, göyöskürək, pnevmoniya kimi xəstəliklərdə, eləcə də boğaz ağrılarında ondan müalicəvi vasitə kimi istifadə olunur. Bu ot indi də möcüzəli, insanın ruhunu möhkəmləndirən bitki sayılır. Təbabətdə kəklikotunun yarpaqlarından təzə, həmçinin qurudulmuş halda istifadə etmək olar. Xoş qoxulu və bir az acıdı. Gün düşən yerlərdə və kölgədə bitən kəklikotuların ətrində və keyfiyyətində fərq var.

Tofiq əmi deyir ki, kəklikotu insanın sinir sisteminə çox müsbət təsir edir: beyin qan dövranını və mübadilə proseslərini qaydaya salır, insanı sakitləşdirir, əsəbiliyi aradan qaldırır, əhval-ruhiyyəni yaxşılaşdırır. Xroniki yorğunluqla mübarizə aparır, yuxunu bərpa edir, yaddaşı və təfəkkürü gücləndirir.

Onun sözlərinə görə, yaşlı insanlar yaxşı xatırlayırlar ki, əvvəllər bir evdə xəstə olanda həkim tapmaq imkanı çox az idi. Türkəçarə vasitələrlə bir çox xəstəliklərin qarşısını almağa çalışardıq. Ən çox da soyuq aylarda kəklikotu çayı soyuqdəymə xəstəliklərində köməyimizə yetirdi. Bu otun dəmləməsindən ağız boşluğu iltihabları, diş ağrıları zamanı qarqara üçün də istifadə edilirdi. Qarqara üçün 1 xörək qaşığı ot 1 stəkan qaynar suda dəmlənilir, 20 dəqiqədən sonra süzülür və hər 2 saatdan bir istifadə olunurdu.

Tofiq əmi deyir ki, kəklikotu və xüsusilə kəklikotu yağının güclü yarasağaltma xüsusiyyəti də var. Yanıqlar, xoralar, donvurma zamanı kəklikotu yağından istifadə etməklə şəfa tapmaq olar. Ekzema kimi bir çox dəri xəstəlikləri zamanı kəklikotu ilə müalicəvi vannalar çox yaxşı effekt verir. Bunun üçün 100 qram ot 1 litr qaynar suda dəmlənilir, 30 dəqiqədən sonra süzülür və ilıq vannaya əlavə olunur.

Kəklikotunu yandırıb onun tüstüsünü evlərə, uşaqlara, xəstə insanlara vermək yaxşı təsirə malikdir.

Onun sözlərinə görə, bu bitkinin yağı da bir çox xəstəliklərin dərmanıdır. Kirəclənmə və revmatizm kimi xəstəliklərdə bədənin ağrısının azalmasına kömək olur. Orqanizmi toksinlərdən təmizləyir. Kəklikotu yağı bakteriyaların orqanizmdən uzaqlaşmasını təmin edərək onlara öldürücü təsir göstərir. Eyni zamanda bağırsaq infeksiyasına mane olaraq, yaraların qısa müddət ərzində yaxşılaşmasına kömək edir. Kəklikotu yağı tətbiq olunduğu nahiyədəki ağrıları sakitləşdirir. Xüsusilə qarın ağrısına qarşı çox faydalıdır. Kəklikotu yağı orqanizmdə olan qurdların məhv olmasına yardımçı olur. Eyni zamanda çəkini normaya salır. Mədə şirəsi ifrazını artıran kəklikotu yağı mədə xorasının əngəlləyir. O, saçlarda yaranan kəpək və mikroblara qarşı mübarizə aparır. Saç tökülməsinin qarşısını alır və tökülən saçların yerinə yenisinin çıxmasını təmin edir, həmçinin qanazlığını aradan qaldırır.

Bu bitkinin faydalarından biri və ən önəmlisi bəşəriyyətin sağalmaz yarasına çevrilən xərçəng xəstəliyinə qarşı müalicəvi əhəmiyyətə malik olmasıdır. Davamlı şəkildə müəyyən miqdarda kəklikotu dəmləməsindən istifadə etmək orqanizmdə bədxassəli şişlərin yaranmasının qarşısını almaq kimi möcüzəvi xüsusiyyətə malikdir.

Çay süfrəsinin digər bir qonağı, xalq təbabətinin sirlərinə bələd olan Fatma xala söhbətimizə qoşulur:

– Naxçıvanda bitən kəklikotu növləri meyvələrin, çiçəklərin ətrini verməklə də məşhurdur. Qızılgül, limon ətri verən və sadə kəklikotu kəndimizin dağlarında bitir. Kəklikotunun bir başqa növü də var ki, ona ətotu deyirlər. Bu otdan obalara, dağlara köçən insanlar dağ yerində ətin keyfiyyətini tez itirməməsi üçün və xüsusilə də kabab, basdırmada istifadə edirlər. Ət hissələrə bölünür və ayrı-ayrılıqda üzərinə ətotu səpib bükdükdə onun keyfiyyəti də, dadı da yerində qalır. Bu, soyuducudan istifadə edilməyən obalarda müvəqqəti yaşayan insanların köməyinə çatır.

Həmsöhbətim kəklikotunun dəmlənməsi qaydasından da danışır. Deyir ki, çayı hazırlamaq üçün 1 çay qaşığı quru kəklikotu 1 stəkan qaynar suda 20 dəqiqə ərzində dəmlənilir, süzülür və adi çay kimi içilir. Çaya bal, limon da əlavə etmək olar. Onu da diqqətimizə çatdırır ki, kəklikotunun qəbulu zamanı mütləq həkimlə məsləhətləşmək lazımdır. Çünki bu müalicəvi bitki bəzi xəstəlikləri olan insanlara əks təsir göstərə bilər.

Fatma xalanın sözlərinə görə, kəklikotunun çiçəklərini çeynəmək diş ağrısına, damaqların möhkəmlənməsinə müsbət təsir edir. Kəklikotu, həmçinin iştahanı yaxşılaşdırır, həzmə kömək edir, mədəni və ciyərləri təmizləyir. Bu bitkinin həlimi qarında köp və spazmı aradan qaldırır. Qan təzyiqi yüksək olanlar da kəklikotundan faydalana bilərlər. Dərinin parlaqlığı, eləcə də yaraların sağalması üçün onun məlhəmi çox xeyirlidir. Məsələn, kəklikotu və baldan hazırlanmış məlhəmi zəhərli həşəratların dişlədiyi yerin üstünə çəksəniz, tezliklə kömək edər. Deyilənlərə görə, gözün qarasına ağ ləkə düşərsə, ora kəklikotu şirəsi damcılatdıqda müalicəvi təsir göstərər.

Fatma xala onu da deyir ki, kəndimizə qonaq gələnlərə, uzaqda yaşayan qohum-əqrəbaya da kəklikotu sovqatı veririk. Çünki elindən, doğma torpağından uzaqda olan hər kəs üçün Vətən dağlarında bitən kəklikotu ən gözəl hədiyyədir.

Bəli, bu dağlar hər zaman bizi düşməndən, soyuqdan, borandan, seldən, tufandan qoruduğu kimi, öz qoynunda bitən şəfalı bitkiləri ilə də dərdlərimizə dərman olub.

**Ramiyyə ƏKBƏROVA**

## Film nümayiş etdirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Günü ərəfəsində gənclərə ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin hər iki dövründən bəhs edən "Xalqa bağışlanan ömür" və "Dahi şəxsiyyət" adlı sənədli filmlər nümayiş etdirilib.

Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində filmə Əlahiddə Ümumqoşun Ordunun əsgərləri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri olmaqla, ümumilikdə, 410 nəfər gənc baxıb.

## Ekskursiya gənclərdə böyük maraq doğurub



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə "Naxçıvanı tanıyaq" devizi altında gənclərin Batabat Astrofizika Rəsədxanası və Şahbuz Dövlət Təbiət Qoruğuna ekskursiyası təşkil olunub.

Batabat Astrofizika Rəsədxanasının direktoru Qulu Həziyev gəncləri rəsədxana ilə tanış edib, onları maraqlandıran suallar cavablandırıb. Daha sonra gənclər Şahbuz Dövlət Təbiət Qoruğunda olublar.

Ekskursiyada 25 nəfər gənc iştirak edib.

**Ceyhun MƏMMƏDOV**

## İntellektual oyunun şəhər birinciliyi başa çatıb



*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondu, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Gənclər Birliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhər məktəbliləri arasında "Nuh yurdu" intellektual oyununun şəhər birinciliyi keçirilib.*

Oyunun keçirilməsində məqsəd yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Əvvəlcə Gənclər Fondunun baş məsləhətçisi Ceyhun Xəlilli, Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və Təhsil Şöbəsinin əməkdaşı Təhminə İbrahimova oyun haqqında geniş məlumat verərək bildiriblər ki, belə intellektual oyunların keçirilməsi şagirdlərin dərsdənkənar bilik və bacarıqlara, milli və ümumbəşəri dəyərlərə yiyələnmələri, yaradıcı təfəkkürlərinin inkişafı üçün şərait yaradır.

8 komandanın iştirak etdiyi intellektual oyunda I yerə "Zirvə", II yerə "Qaraxan", III yerə isə "Hədəf" komandası layiq görülüblər.

Qalib komanda və komanda üzvlərinə təşkilatçıların diplom və fəxri fərmanları təqdim olunub.

## Sərgi keçirilib



Culfa Rayon İcra Hakimiyyəti, Mədəniyyət Şöbəsinin təşkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar Culfa şəhər 3 nömrəli tam orta məktəbin iclas zalında sərgi təşkil edilib. Sərgidə 35 yaradıcı şagirdin 250 rəsm və əl işləri nümayiş olunub.

Tədbirdə rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Orxan Ələkbərli çıxış edərək bildirib ki, ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da milli dəyərlərimizə, tarixi-mədəni irsimizə qayğı ilə yanaşılır. Bu sahədə sistemli tədbirlər həyata keçirilərək tarixi abidələrə yeni həyat verilib, xalq yaradıcılığı günləri təşkil olunub.

Sonra sərgiyə baxış olub.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## Naxçıvanlı şahmatçı Azərbaycan birincisi olub



Ötən ayın 29-da Bakı şəhərindəki Respublika Şahmat Mərkəzində 8, 10, 12 yaşadək uşaqlar və 14, 16, 18 yaşadək yeniyetmələrin Azərbaycan birinciliyinə start verilib.

İkidövrəli mübarizəyə əsasən 8 tur davam edəcək yarışda 18 yaşadək qız şahmatçılar arasında Naxçıvan təmsilçisi Aynur Kətanova sona 1 tur qalmış qalibiyyətini rəsmiləşdirib. Keçirdiyi 7 görüşdən 5,5 xal toplayan Aynur Kətanova ən yaxın rəqibini 2 xal qabaqlayaraq son turun nəticəsindən asılı olmayaraq, Azərbaycan birincisi adına layiq görülüb. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi – FİDE ustası Sadiq Məmmədov isə ikinci olub və Avropa çempionatına vəsiqə qazanıb.

Qeyd edək ki, çempionatda Seyid Hüseyn, Ramal Həsənov, Nəsrin Babayeva və Yeganə Əhmədova da mübarizə aparırlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


### "Naxçıvanbank" ASC aşağıdakı sahələr üzrə işə qəbul elan edir

- İnzibati-Təşkilat Departamentində hüquqşünas;
- İnformasiya texnologiyaları şöbəsində proqramlaşdırma üzrə mütəxəssis;
- Ödəniş kartları şöbəsində ödəniş alətləri üzrə mütəxəssis;
- Ordubad rayon filialında əməliyyatçı.

– Namizədlər 15 iyun 2018-ci il tarixədək *https://naxcivanbank.az/insan-resurslari* linkinə daxil olaraq öz CV-lərini göndərə bilərlər.

– Nəzərinizə çatdırırıq ki, işə qəbul prosesinin növbəti mərhələsi üçün yalnız seçilmiş namizədlərlə əlaqə saxlanılacaq.

***Ətraflı məlumat üçün https://naxcivanbank.az/insan-resurslari linkinə daxil ola bilərsiniz.***


### *Elan*

Babək "Sirab" Açıq Səhmdar Cəmiyyəti öz səhmdarlarını 2017-ci ilin maliyyə nəticələrini bildirmək üçün Sirab kəndində 23 iyun 2018-ci il tarixdə keçiriləcək iclasa dəvət edir. İclasın gündəliyi aşağıdakılardan ibarətdir:

1. 2017-ci ilin maliyyə vəziyyəti haqqında hesabat
2. Səhmdarlara çatan dividentlərin açıqlanması
3. 2017-ci ildə müəssisəyə qoyulan investisiyalar və aparılan yenidənqurma işləri.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 424